

Nəriman ƏBDÜLRƏHMANLI

# Çingiz Aytmatov – Ədəbiyyatı vicdan məsələsi sayan yazıçı

***Təəssüf ki, qismətimə böyük qırğız yazıçısı Çingiz Aytmatovla birbaşa ünsiyyətdə olmaq düşməyib, onu yalnız 2008-ci ildə, Bakıya son səfəri zamanı Azərbaycan Yazıçılar Birliyində canlı görmüşəm.***

***Amma təsvir elədiyi aləmlə, qəhrəmanlarıyla mənəvi bağlılığımı həmişə hiss eləmişəm. ‘Manas’’dan sonra ‘Cəmilə’’, ‘Köşək gözü’’, “Ana tarla”, ‘Erkən durnalar’’, ‘Əlvida, Gülsarı’’, ‘İlk müəllim’’, “Ağ gəmi” povestləriylə qırğız ədəbiyyatını və mənəviyyatını dünyaya tanıdan yazıçı ‘Dəniz kənarıyla qaçan alabaş’’, ‘Əsrə bərabər gün’’, ‘Edam kötüyü’’, ‘Dağlar yıxılanda (Əbədi gəlin)” əsərləriylə bəşəriyyətin qlobal oroblemlərinə toxundu, ‘Kassandranın tacı” romanıyla ‘yer cazibəsi’’hdən qopdu, qəhrəmanlarını kosmik məkana köçürdü, sivilizasiyanın taleyini kosmik səviyyədə axtardı.***

***Dəfələrlə Ədəbiyyat üzrə Nobel mükafatının nominantlarından biri olan bənzərsiz söz ustası ən böyük ödülünü oxucularından alıb: əsərləri dünyanın əksər xalqlarının dilinə çevrilib, yüz min nüsxə tirajla yayılıb, üstəlik, bu, onun cismani yoxluğundan sonra daha geniş vüsət alıb***

## 1.Şəkər aulundan dünyaya

Çingiz Törəkululı 1928-ci ilin dekabrın 12-də türk-qırğız eli Talas vilayətinin Şəkər aulunda dünyaya gəlib. Tanınmış dövlət xadimi olan atası Törəkul Aytmatov 1937-ci ildə millətçilik ittihamıyla həbsə alınıb, 1938-ci ildə isə qısa sorğu-sualdan sonra güllələnib. Aytmatovlar nəslinin bütün kişilərinin də taleyinə bu cür faciə düşüb. İctimai fəal, tatar mənşəli anası Naqimə Abduvəliyeva “xalq düşməni”nin övladlarını – ilki Çingizi, İlgizi, Reva (körpə vaxtı vəfat eləyib), Lyusiya və Rozettanı – böyütmək üçün, sözün əsl mınasında oddan-lovdan keçib, kolxozda hesabdar işləməyə belə razı olub.

Uşaq yaşlarından zəhmətin dadını görən, yeniyetməliyi ağır müharibə dövrünə düşən Çingiz qonşu Pokrovka kəndindəki rusdilli məktəbin səkkizinci sinfini bitirəndən sonra kolxozda işləyib, müharibə başa çatan il Cambul Zootexnikumuna daxil olub, 1948-ci ildə oranı, 1953-cü ildə isə Bişkək Kənd Təsərrüfatı İnstitutunu əla qiymətlərlə bitirib.

Çingiz Aytmatov yaradıcılığa da elə tələbəlik illərindən, həm də şeirlərlə başlayıb. 1952-ci ildə “Qəzetçi Dzyuyo” adlı ilk hekayəsi işıq üzü görüb, sonra “Aşim”, “Biz irəli gedirik” hekayələrini dərc etdirib. 1953-cü ildə təhsilini başa vurandan sonra Moskva Ali Ədəbiyyat Kurslarına getmək istəsə də, “xalq düşməni”nin oğlu olduğuna görə arzusuna çata bilməyib. Üç il Maldarlıq Elmi-Tədqiqat İnstitutunda çalışıb, doğma dilində “Üz-üzə” povestini qələmə alıb. Şəxsiyyətə pərəstişin ifşası sayəsində atası 1956-cı ildə bəraət alandan sonra arzusuna çatıb, Ali Ədəbiyyat Kurslarının dinləyicisi olub. “Üz-üzə” povestinin 1957-ci ildə “Ala-too”, 1958-ci ildə “Oktyabr” jurnalında, “Cəmilə” povestinin isə “Novıy mir” jurnalında dərc olunması (əsəri həmin il məşhur yazıçı Lui Araqon fransız dilinə çevirib) ədəbiyyata çox istedadlı, həm də ciddi bir imzanın gəldiyindən xəbər verib.



Çingiz Aytmatov ilk hekayə və povestlərini qırğız dilində qələmə alıb, rus dilinə tərcüməçilər çeviriblər, sonra isə əsərlərini özü tərcümə eləyib, növbəti mərhələdə isə elə rus dilində də qələmə almağa başlayıb. Bu, o dövrdə dünyaya çıxmağın əsas yollarından biri idi.

***Moskvada təhsilini başa vuran Çingiz Aytmatov ‘Literaturnaya Kirqiziya” jurnalının baş redaktoru, ‘Pravda” qəzetinin Orta Asiya və Qazaxstan üzrə xüsusi müxbiri kimi çalışıb, eyni zmanda da bədii yaradıcılığını davam etdirib. “Qırmızı yaylıqlı qovağım mənim” (1961), ‘Köşək gözü” (1961) və ‘İlk müəllim” (1962), Ana tarla” (1963)povestləri və ‘Dağlar və səhralar povestləri” (1963) toplusu 1963-cü ildə 35 yaşlı yazıçıya dövrün ən nüfuzlu mükafatlarından biri olan Lenin Mükafatını qazandırıb. O vaxtdan da Çingiz Aytmatov təkcə sovet məkanında deyil, xarici ölkələrdə də tanınmağa başlayıb.***

“Əlvida, Gülsarı!” (1966), “Ağ gəmi” (1970), “Erkən durnalar” (1975), “Dəniz kənarı ilə qaçan alabaş” (1977), “Əsrə bərabər gün” (1980), “Edam kötüyü” (1986)romanları isə onun dünyamiqyaslı fikir adamı və qələm sahibi olduğunu bir daha təsdiqləyib. Bu əsərlər yazıçıya üç dəfə SSRİ Dövlət Mükafatı (1968, 1977, 1983),Qırğızıstan Dövlət Mükafatı (1977) və “Sosialist Əməyi Qəhrəmanı” fəxri adı (-1978)qazandırıb, “Qırğızıstanın Xalq yazıçısı” (1968) fəxri adına layiq görülüb, republika EA-nın akademiki (1974) seçilib.

## 2.Şöhrətə gedən daşlı-kəsəkli yol

Çingiz Aytmatovun yaradıcılıq yolu indi təsəvvür edildiyi qədər hamar olmayıb. Elə ilk povestinin (“Üz-üzə”) qəhrəmanı, “Bu mənim müharibəm deyil” məntiqiylə cəbhədən qaçan İsmailin yaşantılarını əks etdirən əsər birmənalı qarşılanmamışdı. Üstəlik, müəllifi də içində yaşadığı ideoloji çərçivəsini nəzərə alıb bir sıra epizodlardan vaz keçməli olmuşdu.

“O vaxt beynimə, məhz qolçomaqların ləğvi mövzusu ilə bağlı olduğuna görə, povestə daxil etməyə cəsarət göstərmədiyim bir süjet gəlmişdi, - sonralar əsər üzərində təkrar işləyən Çingiz Aytmatov yazacaqdı. - İndi isə bütöv bir fəsil bərpa olunub, həmin fəsildə qəhrəmanımın anasını haqlayan ölümdən, lap yaxınlıqda ola-ola hətta onu dəfn edə bilməməsindən söz açılır. Ana öz ölümü ərəfəsində oğlunun çıxılmaz vəziyyətini görür, ona qaçıb bir vaxtlar qolçomaq qardaşlarının daldalandıqları yerə getməsini təklif edir. Elə həmin məqamda da faciəvi mövzuların zəruri əlaqəsi başlayır”.

Daha sonralar, artıq şöhrətli yazıçı olanda, sanballı mükafatlara layiq görüləndə belə, onu bir çox məsələlərdə günahlandırıblar, amma o şöhrətin və mükafatın arxasında böyük istedad, hədsiz zəhmətsevərlik durduğunu unudublar. “Cəmilə”, “Ağ gəmi”, “Əlvida, Gülsarı!” povestlərinin, “Edam kötüyü”, “Əsrə bərabər gün” romanlarının, “İlk müəlim”, “Ana tarla”, “Bürkü” ssenarilərinin taleyi də çətinliklərdən keçib.

“Ağıldan bəla” ədəbiyyat məmurları və redaktorlar yazıçının əsərlərini “redaktə”eləyirdilər. “Əsrə bərabər gün” romanının 1980-ci ildəki ilk çapında bir parça ixtisar olunmuşdu. Əsərin qəhrəmanı Yedigey köhnə dostu olan müəllimi və arvadını ağsaqqal akademik Çaadayla tanış eləyir. Ərtaf aləmin dərki strukturuyla bağlı alimdən eşitdikləri fikirlər onların düşüncələrini tamamilə dəyişdirir: “Özləri də bilmədən Çaadayın düşüncələrinə toxunan Sarıözək didərginləri Abutalip və Zərifənin qəlbində anlaşılmaz ağırlıq hökm sürürdü... Çünki o, mövcud ideologiyanın əksinə olaraq, müəyyən bir ali mənsəbin varlığını gizlətmirdi. Öz Allah-rəhbərləri olan milyonlarla adamın səmimi-qəlbdən kiməsə on min il ömür arzuladığı həmin ideoloji instinkt qəddarcasına ümumdünya qarşıdurmasına, birbaşa Allahla rəqabətə tuşlanmışdı; həmin ideologiya Allah vasitəsiylə insanın düşüncəsini də, iradəsini də, ruhunu da özünə tabe eləməli, addım-addım ürəkdən-ürəyə girməklə bütün yer kürəsini çulğamalı və ram eləməliydi...”

Yazıçının bu öncəgörməsi dünyada baş verən hadisələrlə artıq çoxdan təsdiqlənib, yaxın gələcəkdə gözlənən proseslər də oxucuları narahat eləyir. O, “Edam kötüyü” romanında narkomaniyanın ümumi bəla olduğu qənaətinə gəlmişdi. Həmin vaxt hamı yazıçıyla razılaşır, amma heç kəs bu fəlakətin qurbanı ola biləcəyini etiraf eləmək istəmirdi...

Çingiz Aytmatov Qırğızıstan Yazıçılar İttifaqının birinci katibi, “İnostrannaya literatura” jurnalının baş redaktoru, Asiya və Afrika ölkələri ilə Həmrəylik Komitəsinin rəhbərlərindən biri, SSRİ Alli Sovetinin deputatı kimi çoxlu ictimai vəzifələr daşımasına baxmayaraq, yaradıcılıq duyğusunu itirməməyə çşalışırdı.

## 3. “Yazmaq lazımdı, oturub yazmaq...”

“Yenidənqurma və aşkarlıq”, onun ardınca gələn müstəqillik ilərində Çingiz Aytmatovun həyat tərzi da, mövzuları da dəyişdi. Yazıçı 1990-1994-cü illərdə SSRİ-nin və sonradan Rusiyanın Benilüks ölkələrindəki, sonra isə ömrünün axırınadək 2008-ci ilin martınadək Qırğızıstanın Fransada, Belkçika, Lüksemburq və Niderlanddakı səfiri oldu, məşhur “İssık-Kul Forumu”nu təşkil elədi, 1998-ci ildə “Qırğızstan Qəhrəmanı” fəxri adına layiq görüldü.

O, əslində qazandığı şöhrətin kölgəsində rahatca ömür sürə bilərdi – əsərləri dünyanın yüzdən artıq dilinə çüvrilmişdi, kitabları yüz min nüsxə tirajla nəşrr olunur, satılır, hər bir əsəri ədəbi aləmdə hadisəyə çevrilirdi, fantast olmasa da, öz düşüncələrinində zamanı qabaqlamaq kimi Allah vergisinə sahib idi.

***Amma elə hey təkrar eləyirdi: “Yazmaq lazımdı, oturub yzmaq...” Yazırdı da. Həmin dövrdə də ‘Qar içində Məryəm Ana” romanından parçalar (1988) dərc etdirdi(fikrimizcə, sonralar ayrıca hekayə kimi təqdim edilən ‘Baxiana” da həmin əsərdən parçadı), sonra tarixə üz tutdu, ‘Çingizxanın ağ buludu” povestini qələmə aldı, ‘Əsrə bərabər gün” romanını senzurasız (1991) nəşr etdirdi, ‘Kassandranın tacı” fantastik romanını (-1996) romanını oxucuların ixtiyarına verdi.***

““Qar içində Məryəm Ana” romanını bitirə bilmədim, - sonralar yazıçı təəssüflənirdi. – Yenidənqurma başlandı, hər şey baş-ayaq oldu. İndi bilmirəm, ümumiyyətlə, o əsəri bitirməyə hövsələm çatacaq, ya yox? Məsələ burasındadı ki, əsərdə çox şey stalinizmlə bağlıdı. Amma indi meydanı elə tapdayıblar ki, adam ayağını qoymağa qorxur. Hər şryi mənasızlaşdırıblar”.

Bəlkə elə buna görə də Çingiz Aytmatov “Kassandranın tacı” romanını qələmə aldı, düşüncənin qloballığı və kosmik miqyaslı fikirlərin bədii həlliylə seçilən, keskn süjetli, eyni zamanda, yaşadığımız çağ haqqında fəlsəfi hekayət olan roman dərhal dünya ədəbiyyatında hadisəyə çevrildi.

“Kassandradan sevgisinə qarşılıq ala bilməyən Apollon onu öncəgörmələrini puça çıxarmaqla cəzalandırır”, - rahib Filofeyin faciəvi kosmik tarixçəsi yaxıçının qədim yunan mifologiyasından gətirdiyi bu epiqrasla başlayır. Əsərin qəhrəmanı dünyasını dəyişməzdən qabaq insanlara deyir: “Kassandranın nişanı nə ayıbdı, nə rüsvayçılıq. Heç də belə deyil. Artıq izah eləmişəm ki, bu, bizdə nəsildən keçə-keçə yığılmış şər barədə xəbərdarlıq eləyən kassandro-embrionun reaksiyasıdı. Məhşər günü öz içimizdədi, bu tac isə ondan xəbər verir. Son günlər gördüklərimin və eşitdiklərimin hamısı həşflərimin açıq-aşkar vaxtından əvvəl yarandığını, bu səbəbdən də çağdaşlarımın onları başa düşmədiklərini sübut eləyir. Elə buna görə də qəti olaraq qeybə çəkilmək, həyatdan getmək, alnıaçıq, üzüağ aradan çıxmaq qərarına gəlmişəm, xoşbəxtəm ki, bunu kimsənin sahib olmadığı kosmosda gerçəkləşdirə bilərəm...”

## 4.Ədəbiyyat, ruh və din

***‘Kassandranı tacı” romanı bütün bəşəriyyətə xəbərdarlıqdı, həm də ruhi və dini axtarışlarında tərəddüdlər keçirən insanın etirafını xatırladır. Roman çapdan çıxanda bəzilərinə elə gəldi ki, cəmiyyət Çingiz Aytmatovun simasında daha bir yazıçını itirib, əvəzində əxlaq moizəçisi qazanıb...***

(ardı gələn sayımızda)